*Mahmud Kaşğarlı* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 3 Sayı: 7 / 145-151 ISSN: 3005-3137
*Mahmud Kashgarly* International Scientific Journal. 2025 / Volume: 3 Issue: 7 / 145-151 e-ISSN: 3005-4982

DOI: https://doi.org/10.36719/3005-3137/7/145-151

**Püstə Əhmədova**
Naxçıvan Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0009-0005-7857-4359
pusteehmedova@yahoo.com

# Azərbaycan nağıllarında xalq hikməti və mənəvi dəyərlər

## Xülasə

Nağıllar hər bir xalqın düşüncə tərzini, həyat fəlsəfəsini, əxlaqi və mənəvi dəyərlərini əks etdirən şifahi xalq ədəbiyyatının ən zəngin və qədim janrlarından biridir. Azərbaycan xalq nağılları əsrlər boyu formalaşmış, xalqın dünyagörüşünü, sosial münasibətlərə və insan xarakterinə dair düşüncələrini özündə əks etdirmişdir. Bu nağıllarda ədalət, mərhəmət, zəka, cəsarət, dostluq, xeyirxahlıq və zəhmətsevərlik kimi dəyərlər tərənnüm olunur. Bu nağıllar insana əxlaqi tərbiyə vermək, onun həyat yolunu işıqlandırmaq və gələcək nəsillərə milli-mənəvi dəyərləri ötürmək missiyasını yerinə yetirir. Azərbaycan nağılları xalqın müdrikliyinin, mənəvi-əxlaqi dəyərlərinin və həyat təcrübəsinin ən zəngin ifadə vasitələrindən biridir. Məqalədə Azərbaycan nağılları janr baxımından üç əsas qrupa – sehrli nağıllar, məişət nağılları və heyvanlar haqqında nağıllara bölünərək təhlil edilir. Bu nağıllarda təsvir edilən qəhrəmanlar – igid cavanlar, hikmətli qocalar, zalım hökmdarlar, cadugərlər, sehrli varlıqlar, xeyirxah və məkrli personajlar xalqın mifik dünyagörüşünün ifadəsidir. Xüsusilə qəhrəmanın müxtəlif sınaqlardan keçərək kamilləşməsi, onun müdrik məsləhətçilərdən, sehrli vasitələrdən istifadə edərək çətinlikləri aşması, nəticədə ədalətin zəfər çalması motivləri geniş şəkildə araşdırılır. Tədqiqatın əsas məqsədi Azərbaycan nağıllarının təkcə folklor nümunəsi kimi deyil, həm də xalqın mənəvi dəyərlərinin, əxlaq normalarının, etik qaydalarının daşıyıcısı kimi təqdim olunmasını göstərməkdir. Burada nağılların uşaqların tərbiyəsində, mənəvi-əxlaqi keyfiyyətlərinin formalaşmasında, milli kimlik və vətənpərvərlik şüurunun inkişafında oynadığı mühüm rol vurğulanır. Azərbaycan nağıllarının müasir dövrdə tədqiqi və təbliği məsələlərinə də toxunulur, onların yazılı və şifahi ədəbiyyatda, təhsil və tərbiyə sistemində istifadəsi üzərində dayanılır.

***Açar sözlər**: Azərbaycan nağılları, mənəvi dəyərlər, qəhrəmanlıq, vətən sevgisi, folklor*

**Pusta Ahmadova**
Nakhchivan State University
Doctor of philological sciences
https://orcid.org/ 0009-0005-7857-4359
pusteehmedova@yahoo.com

# Folk wisdom and spiritual values in azerbaijan tales

## Abstract

Tales are one of the oldest and most ancient genres of oral folk literature that reflect the way of thinking, life philosophy, moral and spiritual values of each nation. Azerbaijani folk tales have been formed for centuries and have reflected the people's outlook, thoughts on social relations and human character. In these tales, values such as justice, mercy, intelligence, courage, friendship, kindness and diligence are brought up. These tales fulfill the mission of providing moral education to a person, illuminating his life path and passing on national and moral values to future generations. Azerbaijani fairy tales are one of the most important roles of people's wisdom, moral values and life experience. In the article, Azerbaijani fairy tales are divided into three main groups in terms of genre - magical tales, household tales and tales about animals. Heroes depicted in fairy tales - brave young men, wise old men, tyrannical rulers, witches, magical beings, benevolent and cunning characters - are an expression of the mythical outlook of the people. In particular, the motives of the hero's improvement through various trials, his overcoming difficulties using wise advisors and magical means, and the triumph of justice as a result are widely explored. The main goal of the research is to show that Azerbaijani fairy tales are presented not only as examples of folklore, but also as carriers of moral values, moral norms, and ethical rules of the people. Here, the important role played by fairy tales in the education of children, in the formation of their spiritual and moral qualities, and in the development of national identity and patriotism is emphasized. The issues of research and promotion of Azerbaijani fairy tales in modern times are also touched upon, and their use in written and oral literature, education and training system is emphasized.

***Key words***: *Azerbaijani tales, moral values, heroism, love of country, folklore*

## Giriş

Babalarımızın, nənələrimizin bizə ötürdüyü ortaq milli sərvət olan nağıllar uşaqların düzgün inkişafında, onların tərbiyəsində mühüm rol oynayır. Bu zəngin folklor nümunələrinin uşaqlara təsiri heç nə ilə müqayisə oluna bilməz. Çünki

Azərbaycan nağılları xalqımızın mənəvi dünyagörüşünü, həyat fəlsəfəsini və tərbiyə prinsiplərini əks etdirən zəngin folklor nümunələridir. Bu nağıllar əsrlər boyu şifahi şəkildə nəsildən-nəslə ötürülmüş, xalqın dünyagörüşünü, arzularını və həyat fəlsəfəsini əks etdirmişdir. Azərbaycan folklorunun öyrənilməsində nağıllar xüsusi əhəmiyyət daşıyır. Çünki xalqın yaratdığı nağılların əsasını təşkil edən miflər, mif süjetləri, ritual xarakterli mərasimlər, etiqadlar, adətlər və s. onların ulu babalarının – oğuzların yaratdığı mifoloji dünya modeli əsasında əmələ gəlmişdir (Əliyev, 2014, s.35).

**Tədqiqat**

Nağıllar vasitəsilə insanlar, yalnız qəhrəmanların macəralarını deyil, həm də həyatın əsas prinsiplərini, yaxşı ilə pisin mübarizəsini, ədalət, mərhəmət, dürüstlük kimi vacib dəyərləri öyrənirlər (Şamil, 2015. s. 31*)*. Azərbaycanda nağıllar illər boyu şifahi şəkildə nəsildən-nəslə ötürülmüş və XX əsrin ortalarında yazılı şəkildə qeydə alınmışdır. Nağıllarda doğruluq, ədalət, mərhəmət və sədaqət kimi keyfiyyətlər yüksək qiymətləndirilir. Azərbaycan nağılları məzmununa və süjet xəttinə görə müxtəlif janrlara bölünür:

Sehrli nağıllar: Bu nağıllarda sehrli obyektlər, məxluqlar və hadisələr ön plandadır.

Məişət nağılları: Gündəlik həyat və ailə münasibətləri ilə bağlı hekayələrdən ibarətdir.

Heyvanlar haqqında nağıllar: Heyvanların danışdığı və insanlara dərs verdiyi nağıllardır.

Tarixi nağıllar: Keçmişdə baş vermiş hadisələrə əsaslanan və xalqın tarixi yaddaşını əks etdirən nağıllardır.

Azərbaycan sehrli nağılları, zəngin mədəniyyətin bir hissəsi olaraq, özünəməxsus xüsusiyyətlərə və dərin mənalara malikdir. Bu nağıllarda həm xalqın əxlaq prinsipləri, həm də təbiət və ruhani aləmlə bağlı inanclar əks olunur. Bu nağıllar da tərbiyəvi əhəmiyyəti ilə seçilir. “Pərilər padşahının əhdi”, “Tapdıq”, “Məlikməmməd” və s. sehrli Azərbaycan nağıllarıdır. Həmin nağıllarda peri, padişahların sehrli qızları, cadugərlər və cinlər yer alır. Bu varlıqlar nağıl qəhrəmanlarına müxtəlif vəziyyətlərdə kömək edir və ya onları sınayır. Azərbaycan sehrli nağılları çox vaxt təvazökarlıq, dostluq, sadiqlik və əməksevərlik kimi dəyərləri tərənnüm edir. Bu nağıllarda nağıl qəhrəmanları, şər qüvvələr, qorxunc varlıqlar – əjdahalar, divlər, təpəgözlər və s. vardır. Qədim miflərdə də mədəni qəhrəmanlar və sadaladığımız mənfi obrazlar vardır. Mif və nağıl qəhrəmanları isə bu şər qüvvələrə, qorxunc varlıqlara qarşı mübarizə aparır, nəticədə onlara qalib gəlir və mövcud məkan və zaman daxilində kosmik nizamı bərpa edirlər. (https://www.elibrary.az/docs/JURNAL/jrn2009_203j.pdf)

"Məlikməmməd" nağılında qəhrəmanın çətinliklərə baxmayaraq, cəsarətli və ədalətli olması onun uğur qazanmasına səbəb olur. Həmçinin, bu nağıllar uşaqlara əzm, qəhrəmanlıq və mübarizə ruhunu da aşılayır.

"Biri vardı, biri yoxdu" möcüzəsi əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə keçmiş, dildən- dilə, yaddaşdan-yaddaşa köçə-köçə milyon-milyon insan ömrünü yaşayaraq bu günümüzədək gəlib çatmışdır. Məişət nağılları da geniş mənada həyatın gündəlik təfərrüatlarını və cəmiyyətin həyat tərzini əks etdirən xalq ədəbiyyatının əsas janrlarından biridir. Məişət nağıllarının əsas qəhrəmanları şah, keçəl, qarı, yetim, muzdur, nökər, ilxıçı, çoban, bir-birini çox sevən bacı-qardaş, üç bacı, kəndli və s. kimi nümayəndələr olur. Folklorşünas P.Əfəndiyev haqlı olaraq qeyd edir ki, nağılların əvvəlində onlar gücsüz, bacarıqsız kimi təsvir olunur. Sonra sanki bunlar yeni fiziki və əqli qüvvə kəsb edir, bütün maneə və tilsimlərə qələbə çalaraq bacarıqlı, ağıllı, ədalətli insan, hətta tədbirli hökmdar dərəcəsinə qədər yüksəlirlər (Əfəndiyev, 1981, s. 20.) Bu nağıllar adətən real həyatda mümkün olan hadisələri və münasibətləri dramatik və mübaliğəli şəkildə təqdim edir. Məişət nağılları sehrli və heyvanlar haqqında nağıllarla müqayisədə, əsasən, məişət problemlərinə daha yaxındır. Digər nağıllardan fərqli olaraq burada uydurma təsəvvür olunan hadisələrin adi düşüncə normalarına uyğun gəlməsi əsasdır. Məişət nağıllarının mövzusunda olduğu kimi mənşəyi də fərqlidir. Xalqın əxlaqi görüşləri, ədalətli hökmdar haqqında təsəvvürlər bu nağılların məzmununu müəyyənləşdirir. Məişət nağılları sadə insan həyatının təbiətini, onun qarşılaşdığı çətinlikləri və gündəlik həyatda qarşılaşdığı problemleri izah edərək, sosial təbəqələr, ailə münasibətləri, ailə içi rol bölgüsü və ənənələr barədə dərin biliklər verir. Məişət nağıllarının xalq ədəbiyyatında çox mühüm yeri vardır. Bu nağıllar həm öz dövrünün sosial və mədəni həyatını, həm də zamanla dəyişən sosial münasibətləri əks etdirir. Məişət nağılları çox vaxt bir cəmiyyətin həyatını, insanların dünyagörüşünü və sosial həyatını tədqiq etmək üçün faydalı bir qaynaq ola bilər. Bu nağıllar sosial təhlilin bir vasitəsi olaraq da istifadə edilə bilər, çünki onlar adətən müəyyən bir dövrün və cəmiyyətin düşüncə tərzini, dəyərlərini və münasibətlərini əks etdirir (Cavad, 2012, s.103). "Gülsüm və Həsən", "Yalançı Tacir" və s məişət nağıllarıdır.

Heyvanlar haqqında nağıllar, xüsusilə uşaq ədəbiyyatında geniş yayılmış və çox mühüm tərbiyəvi əhəmiyyətə malikdir. M. Təhmasibin dediyi kimi, heyvanlar haqqında nağıllar ən qədim nağıllardır. Qədim insanlar bəzi heyvanları ecazkar varlıq kimi müqəddəsləşdirirdilər. Heyvanlara aid olan nağılların içərisində böyük bir qismini alleqorik nağıllar təşkil edir. Azərbaycan nağıllarının çoxunda buna rast gəlmək olur. "Tülkü, tülkü, tünbəki, "Çəyirtkə və Qarışqa", "Şir və Siçan", "Tülkü və qurd", Göyçək Fatma", "Ovçu Pirim", Şəngilim, Şüngülüm, Məngülüm" və s.

heyvanlar haqqında nağıllara nümunədir.

Heyvanlar adətən, nağıllarda insan xüsusiyyətlərini təmsil edən və ya insanları təqlid edən obrazlar kimi təqdim olunur. Bu yolla həmin nağıllar uşaqlara dərin həyat dərsləri verir. Hər bir heyvanın davranışı onun daxili xüsusiyyətlərini, məqsəd və niyyətlərini, həmçinin düzgün və ya yanlış davranışını təmsil edir. Məsələn, çox vaxt bir heyvanın hiyləgərliyi, başqasını aldadaraq öz məqsədinə çatması tənqid edilir, yaxşılıq, dürüstlük və əməksevərlik isə müsbət qiymətləndirilir. Uşaqlar, heyvanların davranışlarını izləyərək, doğru və yanlış arasındakı fərqi daha asan başa düşə bilirlər.

"Tülkü, tülkü, tünbəki" nağılında tamahı üzündən quyuya düşən tülkü və digər heyvanlar haqqında danışılır. Burada tülkünün hiyləgərliyi ilə digər heyvanları aldatmağı uşaqlara tamaha qurban getməməyi öyrədir (Nəbiyev, 2009, s.35)..

Bir çox nağıllarında isə heyvanlar bir-birinə kömək edir, birgə çalışaraq məqsədlərinə çatırlar. Bu, uşaqlara həmrəylik, dostluq və başqalarına kömək etmənin vacibliyini öyrədir. Dostluq mövzusu uşaqların sosial inkişafında mühüm rol oynayır, çünki onlar nağıllarda hər bir heyvanın özünə uyğun rolunu taparaq komanda şəklində işləməyi və qarşılıqlı anlaşma yaratmağı öyrənirlər.

Tarixi nağıllarda isə xalqın və ya qəhrəmanların tarixdəki, mübarizələri, fədakarlıqları və əldə etdikləri nailiyyətlər izah olunur. "Baftacı və Şah Abbas", "Soltan İbrahim", "Şah oğlu Bəhrəm", "Şirvan qazisi" və s. tarixi nağıllara nümunədir. Bu nağılların əsas xüsusiyyəti keçmiş dövrün tarixi hadisələrini, insanların həyatından və mübarizələrindən ilham alaraq gənclərə müsbət əxlaqi dəyərləri aşılamaqdır. Tarixi nağılların tərbiyəvi əhəmiyyəti, onların tarixə və mədəniyyətə olan hörməti artırması, uşaqlara tarix boyu xalqın apardığı mübarizələri, böyüklərin həyatdan çıxardığı dərsləri, habelə cəmiyyətin üzləşdiyi çətinliklər qarşısında doğru davranış yollarını göstərməsidir. Keçmişin böyük şəxsiyyətləri və onların mübarizələri tarixi nağıllar vasitəsilə əyani şəkildə göstərilir (Əliyev, 2006, s.12). Məsələn, Azərbaycanda tarixdəki böyük şəxsiyyətlər və qəhrəmanlar haqqında danışan nağıllar uşaqlara həm vətənpərvərlik, həm də tarixi dəyərlərə hörmət hissi aşılayır. Bu nağıllarda igidlik və vətənə bağlılıq önəmli yer tutur.

Hər bir xalq öz mədəniyyətinin, əxlaqının, təfəkkürünün, dünyagörüşünün, həyat tərzinin, bütövlükdə etnik mədəniyyətinin özünəməxsusluğu ilə böyükdür. Xalqın bir xalq kimi mövcudluğu bu etnik mədəniyyətin mövcudluğundan asılıdır. Etnik mədəni dəyərlərin ölməsi xalqın tarix səhnəsindən çıxması ilə nəticələnir. Tarixdən məlum olan bir çox xalqların assimilyasiyası məhz sözügedən dəyərlərin itirilməsi ilə bağlı olmuşdur (Cəfərzadə, 1982. s. 16).

Abdulla Şaiq, Milvarid Dilbazi, Mikayıl Müşfiq və başqaları xalq nağıllarından yaradıcı şəkildə istifadə edərək uşaqlar üçün əsərlər yazmışlar. Bu gün

təssüf ki, nağılların uşaqların tərbiyəsindəki rolu azalır. Bunun əsas səbəblərindən biri də texnologiyanın təsiridir. Uşaqlar daha çox cizgi filmlərinə və video oyunlara üstünlük verirlər. Buna müasir ailə modelinin dəyişməsi də təsir edir. Çünki bəzi valideynlər nağıl danışmaq əvəzinə, uşaqları ekrana yönəldirlər. Milli dəyərlərin məzmunu üzrə tədqiqatdan məlum olur ki, Azərbaycan xalqının ən yüksək qiymət verdiyi dəyərlərdən biri məhz insan amili ilə bağlıdır (Təhmasib. 2004, s.17). Lakin müasir dövrdə texnologiyanın inkişafı və informasiya bolluğu fonunda nağılların tərbiyəvi əhəmiyyəti kölgədə qalır. Nağılların dərin mənəvi və etik dəyərləri özündə daşıyan bir çox funksiyası var. Bu məqalədə Azərbaycan nağıllarının tərbiyəvi funksiyalarını problematik aspektdə təhlil etməyə cəhd edilmişdir.

## Nəticə

Azərbaycan nağıllarında hər zaman ədalət, mərhəmət, dürüstlük, ailə dəyərləri kimi universal dəyərlər tərənnüm edilir. Müasir dövrdə də nağıllar, əxlaqi tərbiyə vasitəsi kimi istifadə olunaraq, nəsildən-nəsilə ötürülməli və qorunub saxlanılmalıdır. Ona görə də evdə, təhsil ocaqlarında folklor nümunələri olan nağılların uşaqlara aşılanması və sevdirilməsi üçün daim iş aparılmalı, bu nümunələr uşaqlara öyrədilməlidir. Nağıllar bu gün də cəmiyyətin mədəni və mənəvi həyatında mühüm yer tutur. Onlar təkcə uşaqlar üçün deyil, böyüklər üçün də həyat dərsləri verir. Müasir dünyada texnologiya və yeni media vasitəsilə nağılların yayılması onların əhəmiyyətini daha da artırır. Bu, xalqın mədəni irsinin qorunması və gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır.

## Ədəbiyyat

1. Azərbaycan nağılları. Beş cilddə. I cild. Bakı, “Şərq-Qərb”, 2005
2. Cavad, Ə. (1990). Azərbaycan folklorunda əxlaqi dəyərlər. Bakı 2012
3. Əzizə Cəfərzadə. Anamın nağılları. — Bakı. Gənclik, 1982
4. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981, 403 s.
5. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı (Müasir aktual problemlər). - Bakı: 2014
6. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XX cild. Bakı, Səda, 2006.
7. Nəbiyev Azad. Azərbaycan xalq ədəbiyyatı. Bakı 2009
8. Şamil, Ə. (2015). Mədəniyyət və əxlaq: Folklor kontekstində. Bakı 2015
9. Təhmasib, M. (2005). Azərbaycan xalq nağılları. Bakı 2004
10. https://www.elibrary.az/docs/JURNAL/jrn2009_203j.pdf
11. https://www.nagillar.az/article/

12. https://az.wikisource.org/wiki/Kateqoriya:Az%C9%99rbaycan_na%C4%9F%C4%B1llar%C4%B
13. https://www.nagillar.az/info/azerbaycan_nagillari_haqqinda.html
14. https://anl.az/down/meqale/tezadlar/2015/fevral/418183.htm
15. https://portal.azertag.az/az/encyclopedia/post/14779
16. https://anl.az/down/meqale/xalqcebhesi/2017/avqust/553769.htm

**Daxil oldu: 11.05.2025**
**Qəbul edildi: 11.07.2025**